# Bloq necə yaratmalı

Hər bir iş olduğu kimi bloqun yaradılması da bir neçə mərhələdən keçir. Bu infoqrafikada 5 əsas mərhələ göstərilib

## MƏRHƏLƏ 01

### Məqsəd

İlk növbədə bloqunuzu nəyə görə yaratmaq istədiyinizi müəyyənləşdirməlisiniz:

- Sadəcə hobbi kimi
- İnsanlara fayda vermək üçün
- İnkişaf etdirib gələcəkdə pul qazanmaq üçün və s.

## MƏRHƏLƏ 02

### Kontent

Sonra məqsədinizə uyğun bloqunuzun əsas mövzusunu və kontentini (məzmununu) fikirləşməlisiniz:

- Bloqun əsas istiqaməti hansı olacaq
- Kontent hansı formada hazırlanacaq: (video, audio, məqalələr, müsahibələr və s

## MƏRHƏLƏ 03

### Plan

Adətən birinci yazıdan növbəti mövzuları seçmək çətin olur və insan ruhdan düşür. Ona görə daimi motivasiyada olmaq üçün birinci yazıdan qabaq ən azı 1 aylıq yazı planınız olmalıdır.

## MƏRHƏLƏ 04

### Oxucu

Hədəf kütlənizi təyin edin. Sizin diqqətinizi çəkən mövzu, oxuculara tamamilə maraqsız ola bilər. Ona görə də sizə yox, məhz oxucularınıza maraqlı olan mövzuları yazmalısınız

## MƏRHƏLƏ 05

### Tanıtım

İlk post hazırdır. Lakin, baxış sayı 0. Ona görə də bloqunuzun tanıtım strategiyasını və planını hazırlamalısınız